**Elektron qutular ödəyicilər tərəfindən diqqətlə izlənilir**

Cari ildə fərdi elektron qutulara göndərilən sənədlərin 75,9%-i oxunmuşdur

2010-cu ildən Vergilər Nazirliyinin «İnternet Vergi İdarəsi»ndə innovativ texnologiyalardan biri «Onlayn kargüzarlıq» altsistemi fəaliyyət göstərir. Bu sistem vətəndaşlar və vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin aparılmasını təmin edir. Elektron hökumət quruculuğunun əsas tərkib hissələri sayılan «vətəndaş-dövlət», «biznes-dövlət» və «biznes-biznes» münasibətləri məhz bu sistemin vasitəsilə müasir beynəlxalq standartlar səviyyəsində təşkil edilmişdir.

«Onlayn kargüzarlıq» altsistemi Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) daxili kargüzarlıq sisteminə inteqrasiya olunmuşdur. Bu isə istifadəçinin göndərdiyi sənədlərin vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləməyə və icraçının telefonunu öyrənərək onunla birbaşa telefon əlaqəsi yaratmağa imkan verir.

«Onlayn kargüzarlıq» sistemi ilk dəfə vətəndaşlara dövlət qurumu ilə elektron formada məktublaşmağa imkan yaratmışdır. Bu sistem üzərindən göndərilən hər bir sənəd rəsmi statusa malikdir. İstifadəçilər onlayn kargüzarlıq vasitəsilə etdikləri müraciətlərinin vergi orqanlarında hərəkətini «Əməliyyat tarixçəsi» vasitəsilə izləyə və bu müraciətlərin cavabları ilə elektron qutuları vasitəsilə tanış ola bilirlər. Qeydiyyata alınan hər bir vergi ödəyicisi üçün Vergilər Nazirliyinin www.taxes.gov.az rəsmi internet səhifəsində fərdi elektron qutu (e-qutu) yaradılır. Vergi orqanından istifadəçilərə ünvanlanan məktublar, cavablar, uyğunsuzluq məktubları, bildirişlər, xəbərdarlıqlar və sair sənədlər imzalanan kimi ödəyicinin elektron qutusuna göndərilir. Həmin sənədlər qutuya toplanır və internet vasitəsilə hər yerdən onlarla tanış olmaq mümkündür. Fərdi elektron qutu vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin səmərəliliyini artırır və sənədlərin ənənəvi üsullla kağız daşıyıcılarında göndərilməsi ilə müqayisədə vaxt və resurs itkilərinin qarşısını alır. «Onlayn kargüzarlıq» sistemində elektron qutunun tətbiqi nəticədə sənəd dövriyyəsi, sənədlərin vahid qeydiyyatı və ödəyicilərin müraciətlərinin operativ emalı prosesini sürətləndirmişdir.

«Onlayn kargüzarlıq» sistemində bir sıra ərizələrin elektron formada təqdim edilməsi imkanı da yaradılmışdır: nəzarət-kassa aparatlarının qeydiyyata alınması, qeydiyyatdan çıxarılması, fiziki və hüquqi şəxslərin e-qeydiyyatı, qeydiyyatının dayandırılması və sair ərizə növləri bu sistem vasitəsilə göndərilir.

Bunlardan əlavə, İnternet Vergi İdarəsi vasitəsilə «Sahibkarliq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında» Əsasnamənin tələblərinə uyğun olaraq, sahibkarlıq subyektlərində keçirilən yoxlamalar barədə dövlət reyestrinə daxil edilməli məlumatların Vergilər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ötürülməsi və qeydiyyata alınmış yoxlamalar barədə reyestrdən çıxarışların Ədliyyə Nazirliyindən alınması, habelə yoxlamaların nəticəsi barədə məlumatların Ədliyyə Nazirliyinə ötürülməsi elektron qaydada həyata keçirilir. POS-terminalların elektron qeydiyyatı da «Onlayn kargüzarlıq» vasitəsilə həyata keçirilir.

Arzu İBRAHİMOVA